## Cəmil Əkbər

# Gedir

Günlər keçir qocalırıq dünyada,
Gözümüzdən işıq gedir, nur gedir.
Zəhmət çəkib biz çatsaq da murada,
Dizimizdən taqət gedir, gir gedir.

Çatılıbdır çatılmayan qaşımız,
Ağarıbdır saqqalımız, başımız,
Payız gedir, yaxınlayır qışımız,
Eləbilki tufan qopub, qar gedir.

Zəifləyir yaddaşımız, huşumuz,
Əldən qalır görüləsi işimiz,
Ağzımızda qərar tutmur dişimiz,
İnci gedir, sədəf gedir, dürr gedir.

Qırışlar da iz salıbdır üzlərə,
Duman çöküb, tor gəlibdir gözlərə,
Ağrı çökür oynaqlara, dizlərə,
Qüvvət gedir, qüdrət gedir, zor gedir.

Gəzənmirik oylaqları, dağları,
Solub gedir eşqimizin bağları,
Bar gətirmir şamamanın tağları,
Yetişməmiş alma-heyva, nar gedir.

Əzalardan sağlam qalmır biri də,
Sümüklər də, əzələ də, dəri də,
Bəhsəbəhsdən qalan yoxdur geridə,
Saxlamayır butağında bar, gedir.

Tarix yola salır ulu şahları,
İstər günah etsin, ya savabları,
Ya sevimc gətirsin, ya da ahları,
Tərlan gedir, şahin gedir, sar gedir.

Meydan açıb bir ayağa durmamış,
At çapırıb, köhlənini yormamış,
Dövranını tamam-kamal sürməmiş,
Neçə tay-tuş, neçə yoldaş, yar gedir.

Dəyişir zəmanə, dəyişir həyat,
Əbədi deyildir nə toy, nə büsat,
Tapılmır çarəsi, tapılmır heyhat,
Səraf gedir, zərgər gedir, zər gedir.

Könülləri sındirmasın sözümüz,
Od-ocaqsız yandırmasın közümüz,
Görə-görə kor olmasın gözümüz,
Hörmət edək insanlara, gör gedir.

*Cəmil*, gəl unutma bu həqiqəti,
Əmanət almısan xətir-hörməti,
Sədaqəti, səxavəti, mürvəti,
Ellərin borcunu qaytar, ver gedir.